AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC) İSTANBUL ÜNİVERSİTESİ
SAKARYA ÜNİVERSİTESİ

# UNEC və Türkiyə Universitetlərinin əməkdaşlıq istiqamətləri: *mövcud vəziyyət və perspektivlər* mövzusunda

## BEYNƏLXALQ KONFRANSIN MƏRUZƏLƏRİ

BAKI – 2019

UNEC-də Türkiyə Universitetləri ilə əməkdaşlığa
həsr olunan beynəlxalq konfrans HAQQINDA KİVLƏRDƏ
MƏLUMATLAR

UNEC-də Türkiyə Universitetləri ilə əməkdaşlığa həsr olunan beynəlxalq konfrans.
AZTV
https://www.youtube.com/watch?v=mtr0-Mwd-T4

https://az.trend.az/business/2980387.html

http://news.unec.edu.az/xeber/125-universitet/4403-unec-de-turkiye-universitetleri-ile-emekdashliga-hesr-olunan-beynelxalg-konfrans

***UNEC-də "UNEC və Türkiyə Universitetlərinin əməkdaşlıq istiqamətləri: mövcud vəziyyət və perspektivlər" mövzusuna həsr olunan beynəlxalq konfrans keçirilib.***

UNEC-in təşkilatçılığı və Türk Dünyası Araşdırmalar Vəqfinin (TDAV) dəstəyi ilə keçirilən konfransda universitetin rəhbərliyi və professor-müəllim heyəti ilə yanaşı, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Türkiyə Cümhuriyyətinin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu, Türk Dünyası Araşdırmalar Vəqfinin rəhbəri Közhan Yazgan, Türkiyə- Azərbaycan Parlamentlərlararası Dostluq Qrupunun rəhbəri, AKP İstanbul millət vəkili Şamil Ayrım, İstanbul Universitetinin rektoru, professor Mahmut Ak və digər nüfuzlu qonaqlar iştirak ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov Azərbaycan Dövlət İqtisad Universitetində Türkiyə türkcəsində tədrisi türkçülüyə verilən önəm və dəyərin ən böyük göstəricilərindən biri adlandırıb. Türk dilində tədrisin TDAV-nin mərhum rəhbəri, professor Turan Yazganın təşəbbüsü ilə yaradıldığına diqqət çəkən rektor, Türk Dünyası İqtisadiyyat Fakültəsinin (TUDİFAK) hədəflərindən söz açıb: "Hədəfimiz TUDİFAK-ın türk dünyasına və dünya miqyasında keyfiyyət tələblərinə cavab verə biləcək təhsil məkanına çevrilməsidir. Son hədəf isə fakültə bazasında yeni universitet yaradılması və türk dünyası gənclərinin həmin universitetdə təhsil almasına şərait yaratmaqdır". Fakültədə bu ildən yeni ixtisasların açıldığını bildirən rektor, fakültəyə qəbulda ötən dövrlərlə müqayisədə yüksək bal toplayan abituriyentlərin sayının artdığını qeyd edib. Ə.Muradov TUDİFAK-da təhsilin keyfiyyətinin və cəlbediciliyinin artırılması üçün Türkiyə universitetləri ilə ikili diplom proqramlarının reallaşdırılmasının vacibliyini vurğulayıb.

UNEC-in Türkiyənin nüfuzlu universitetləri ilə əməkdaşlıq etdiyindən söz açan rektor, birgə dərsliklərin hazırlanması və elmi məqalələrin tanınmış dərgilərdə çap olunmasının hər iki ölkənin təhsilinin keyfiyyətinin artırılmasında mühüm rol oynayacağını bildirib.

Konfransda çıxış edən Erkan Özoral Türkiyə-Azərbaycan münasibətlərindən danışıb. Hazırda Azərbaycanın dünya arenasında öz layiqli yerini tutduğunu bildirən səfir, hər iki ölkənin qardaşlıq və dostluq münasibətləri ilə yanaşı, bütün sahələrdə uğurlu əməkdaşlıq etdiyini bildirib. Türkiyədə təhsil alan azərbaycanlıların sayının ildən-ilə artdığına diqqət çəkən E.Özoral, bu istiqamətdə universitetlərin əməkdaşlığının mühüm rol oynadığını vurğulayıb. "Hədəfimiz hər iki ölkənin akademik səviyyəsinin daha da yüksəlməsidir" deyən türkiyəli diplomat, konfransın təşkilinin bu istiqamətdə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Dost və qardaş ölkədə olmaqdan məmnunluğunu ifadə edən Mehmet Muharrem Kasapoğlu Türkiyənin bütün sahələrdə Azərbaycanı dəstəklədiyini bildirib. Türkiyə-

Azərbaycan münasibətlərinin təməlinin tarixi köklərlə bağlı olduğunu söyləyən M.Kasapoğlu, Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə əvəzsiz rol oynadığını diqqətə çatdırıb. Nazir Azərbaycanın uğurlu hərtərəfli inkişafını qürurla izlədiyini xüsusi vurğulayaraq, hər iki dövlət arasında imzalanan mühüm iqtisadi layihələrdən söz açıb.

Türkiyə Parlamentinin millət vəkili Şamil Ayrım professor Turan Yazganın elm və təhsil sahəsindəki xidmətlərindən bəhs edib. T.Yazganın milli-mənəvi dəyərlərə bağlı gənclərin yetişməsində böyük xidmətlər göstərdiyini bildirən millət vəkili məhz belə gənclərin sayəsində Azərbaycanla bərabər, Türkiyənin də problemi sayılan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olunacağına əminliyini bildirib.

İstanbul universitetinin rektoru, professor Mahmud Ak mərhum professor Turan Yazganın həyat və fəaliyyətindən danışıb. Onun Türk dünyasında, o cümlədən Azərbaycanda təhsilin inkişafına böyük önəm verdiyinə diqqət çəkərək, bu siyasətin əsas məqsədinin türk millətini birləşdirmək olduğunu qeyd edib.

Professor Zahid Məmmədovun moderatorluğu altında keçirilmiş panel çərçivəsində İstanbul universitetinin rektoru, professor Mahmud Ak universitetin elmi nəşrləri haqqında məlumat vermişdir. Bildirildi ki, İstanbul Universitetinin 16 nəşri "Web of Science" platformasına daxil olub. Müzakirələr çərçivəsində UNEC professor-müəllim heyətinin İstanbul Universitetinə səfəri planlaşdırıldı. Əldə olunan razılığa görə, qardaş ölkənin ali təhsil ocağı UNEC elmi nəşrlərinin "Web of Science" platformasına daxil edilməsinə dəstək olacaqlar. Tərəflər birgə elmi nəşrlər hazırlamaq niyyətindədirlər.

Panel çərçivəsində Sakarya Universitetinin "İşletme Fakültesi" dekanı, Prof. Dr. A.Vecdi Can "Ali təhsil müəssisələrində akkreditasiya: Sakarya Universiteti nümunəsində akkreditasiya ilə bağlı təkliflər" mövzusunda çıxış etdi. Qonaq elmi nəşrlərin akkreditasiyası zamanı qarşıya qoyulan beynəlxalq və milli tələblər barədə danışdı.

Davam olaraq Dr. Köksal Şahin "Azərbaycan və Türkiyə ali təhsil sistemlərinin əməkdaşlıq istiqamətləri: ortaq elmi nəşrlər və istinad məlumatları ilə analiz" mövzusunda çıxış etdi. Məruzəçi UNEC müəllimlərinin "Web of Science" platformasında yerləşdirilmiş məqalələrinin sayı son 4 ildə ciddi surətdə artmışdır. Bu artım tempinin genişləndirilməsi üçün türk dünyasıdan olan ali məktəblərin birgə nəşrlərlə "Web of Science" platformasında iştirakının zəruri olduğu vurğulandı. Bu təcrübədən rus dilli ölkələrin, portuqal dilində danışan dövlətlərin ali məktəblərin geniş istifadə etdikləri vurğulandı.

Yekunda moderator, professor Zahid Məmmədov qeyd etdi ki, UNEC- in artıq regionda elmi tədbirlərin keçirilməsinə mərkəzinə çevrildiyini bildirdi.

UNEC rektorunun qərarı ilə panel çərçivəsində keçirilən müzakirələr vahid elmi nəşr formatında çap ediləcək.

Növbəti müzakirələrin İstanbul Universitetində keçirilməsi nəzərdə tutulub.

Konfransda Bakı Atatürk liseyinin şagirdlərinin ifasında şeirlər səsləndirilib.

Beynəlxalq konfrans "UNEC və Türkiyə universitetlərində akademik fəaliyyətin keyfiyyətinin artırılması istiqamətində əməkdaşlıq istiqamətləri" mövzusunda panel müzakirələrlə davam edib.




AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
AZƏRBAYCAN • DÖVLƏT • İQTİSAD • UNİVERSİTETİ
1930


AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ




AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ


AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ


AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ


AZƏRBAYCAN DÖVLƏT
İQTİSAD UNİVERSİTETİ
AZERBAIJAN STATE
UNIVERSITY OF ECONOMICS

















